MƏDƏNİYYƏT

# "Gənc istedadların III respublika müsabiqəsi keçirilir"

## "QIZLARIN TAR VƏ KAMANÇADA İFA ETMƏLƏRİ ÇOX YAXŞI HALDIR"

## RAMİZ QULİYEV: "ÇALIŞAN TƏLƏBƏLƏRİN MƏNİMSƏMƏ SƏVİYYƏSİ ALİ TƏHSİLLİ MÜƏLLİMLƏRDƏN DAHA ÜSTÜNDÜR"



**MUSİQİ** təhsilinin inkişafı, xalq çalğı alətlərinin təbliği və gənc istedadların üzə çıxarılması məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə aprel-may aylarında uşaq və gənclər arasında xalq çalğı alətləri ifaçılarının III respublika müsabiqəsi keçirilir. Müsabiqə 2 turdan ibarət olaraq Bakı, Mingəçevir, Goranboy, Şəki, Xaçmaz, Ağcabədi, Şirvan şəhərlərində keçirilir. Bu barədə "Üç nöqtə"yə məlumat verən tarzən Ramiz Quliyev bildirdi ki, müsabiqə tar, kamança, qarmon, kanun, balaban, saz üzrə keçirilir: "6 ixtisasın hamısına eyni gözlə baxırıq, eyni məsuliyyəti hiss edirik. Amma müsabiqədə daha çox tar çalanlar iştirak edir. *Müsabiqə çox yüksək səviyyədə başlayıb. Yoxlama son dərəcə obyektiv aparılır. Mingəçevir, Goranboy və Şəki şəhərlərində olduq. Müsabiqə bölgə-bölgə keçirilir. 3 gün Şəkidə qaldıq. Qəbələ, İsmayıllı şəhərlərinin şagirdləri Şəkiyə gəldilər.* Hazırda Xaçmazda iştirak edirik. Quba, Xaçmaz, Şabran, Siyəzən, Ağdamdan istedatlar bura gələcək. Gələn həftənin bazar ertəsi Ağcabədi, Qarabağ zonasında olacağıq. Müsabiqə mayın 5-dən 12-dək Bakıda davam edəcək. İkinci tur mayın 14-də baş tutacaq. İştirak etdiyimiz rayonlarda "Balaban" ifaçıları olmadı. Bu məni çox narahat edir. Amma Bakıda olacaq. Kanun ifaçıları da çox azdı. Ən çox tar və saz ifaçıları var. Kamança, qarmon ifaçıları da az deyil. Yaxşı tələbələr də var. İşləyən müəllimin tələbələri yaxşı iş göstərir. İşləməyən müəllimlərin şagirdlərinin nəticələri də aldıqları dərslərin səviyyəsi barədə nə isə demək tezdir. Münsif heyəti birinci turun bütün işlərini görüb nəticəsini elan edəcək. Sonra ikinci turun nəticəsini elan edəcək. Bu müsabiqədə bizi sevindirən o oldu ki, əvvəllər ifaçılar çox az repertuarla iştirak edirdilər. Amma indi fərqlidir. Çalışan tələbələrin mənimsəmə səviyyəsi ali təhsilli müəllimlərdən daha üstündür. Qızların tar və kamançada ifa etmələri çox yaxşı haldır. Bu müsabiqənin mədəniyyətimiz üçün çox böyük töhfələri olacaq. *İlk növbədə gənc musiqiçilərin inkişafı üçün çox böyük stimuldur. Gənclər bir-birinə baxaraq bəhsə düşürlər. Sənətdə rəqabət yaranır. İştirakçılar müsabiqə yolu ilə göstərirlər ki, hansı istedad sahibidir. Eyni zamanda müəllimin də işi nəzərə alınır. Onun nə dərəcədə işinə məsuliyyətlə yanaşması şagirdinin çıxışından aydın olur.* Müəllim yaradıcılıq baxımından şikəstdirsə, tələbə də şikəst olur. Bu müsabiqə üç yaş 12-13, 14-16, 16-18 səviyyəsində keçirilir. Müsabiqə onların formalaşması, inkişaf etməsi üçün böyük rol oynayır. Bu çox böyük bir layihədir və Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə həyata keçirilir".